# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 206** **Bakı şəhəri, 14 iyul 2021-ci il**

***“Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respub-likası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, № 11, maddələr 1387, 1394, № 12, maddələr 1588, 1592, 1612; 2021, № 1, maddələr 92, 106, № 3, maddələr 267, 290, 291; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 aprel tarixli 100 nömrəli, 26 may tarixli 151 nömrəli, 22 iyun tarixli 177 nömrəli və 29 iyun tarixli 187 nömrəli qərarları) 1.1.15-ci yarımbəndində “17 iyul saat 00:00-dan 19 iyul saat 06:00-dək” sözləri “18 iyul saat 00:00-dan 22 iyul saat 06:00-dək” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 15 iyul.- S.5.